DOI: https://doi.org/10.36719/2663-4619/89/27-33

**Seyfəddin Səməndərov**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
İqtisadiyyat İnstitutu
iqtisad elmləri doktoru
seyfeddinsamaandarov@mail.ru
**Natavan Vahidova**
111 № li tam orta məktəb
natavan1968@inbox.ru

# HEYDƏR ƏLİYEV MÜASİR AZƏRBAYCAN RESPUBLİKASININ QURUCUSU VƏ BÖYÜK MEMARI

**Xülasə**

Məqalədə tarix səhnəsində iz buraxan qüdrətli şəxsiyyət cənab Heydər Əliyevin illər ərzində formalaşan dövlətçilik praktikasının inzibati amirlik sistemindən bazar iqtisadiyyatına keçid prosesinində düzgün qərarların qəbul edilməsinə təsiri məsələsi dəyərləndirilmişdir. Eyni zamanda məqalədə keçid prosesində bir-biri ilə qarşılıqlı əlaqədə olan üç vəzifənin həll edilməsinə diqqət çəkilir. Buraya 1) makroiqtisadi sabitlik və iqtisadiyyatın sağlamlaşdırılması, iqtisadiyyatın böhrandan çıxarılması; 2) bazar iqtisadiyyatı sistemi institut və mexanizmlərinin formalaşdırılması; 3) dayanıqlı iqtisadi artımın təmin olunması daxildir.

***Açar sözlər:*** *iqtisadi sistem, inzibati amirlik sistemi, planlı iqtisadiyyat, bazar iqtisadiyyatı, özəlləşdirmə*

**Seyfaddin Samandarov**
Ministry of Science and Education of the Republic of Azerbaijan
Institute of Economics
Doctor of Economic Sciences
seyfeddinsamaandarov@mail.ru
**Natavan Vahidova**
Secondary school No. 111
natavan1968@inbox.ru

# Haydar Aliyev founder and great architect of the modern Azerbaijan Republic

**Abstract**

Haydar Aliyev is a great historical personality. The article assesses the impact of Haydar Aliyev's public administration practice in solving issues of the transition period. Attention is paid to solving such problems that interact with each other in the transition process. This includes 1) macroeconomic stability and economic recovery, economic recovery from the crisis; 2) the formation of institutions and mechanisms of the market economy system; 3) ensuring sustainable economic growth.

***Keywords:*** *economic system, administrative-command system, planned economy, market economy, privatization*

## Giriş

XX əsrin fərqli xüsusiyyətlərindən bir kimi dünyanın müxtəlif yerlərində xalqların siyasi və milli oyanışının baş verməsi qeyd olunmalıdır. Həmin ölkələrdə xalq kütlələri fəal surətdə ictimai-siyasi proseslərdə iştirak etməyə başladılar (Makhmudov, 2016: 116). Lakin xalq kütlələrinin artan fəallığının uzaqgörən və bacarıqlı lider olmadan uğur qazanması qeyri-mümkündür. Heydər Əliyev

tarix səhnəsində iz buraxan qüdrətli şəxsiyyətlərdən biridir. Belə bir zəmində qeyd etmək lazımdır ki, XX əsrdə Azərbaycan xalqı dəfələrlə əsarət zülmünə qarşı mübarizəyə qalxaraq millət olmaq əzmini nümayiş etdirdi. Azərbaycan xalqının millət olmaq savaşında Heydər Əliyevin tarixi şəxsiyyət kimi misilsiz xidmətləri var.

Müvafiq olaraq Heydər Əliyevin dövlətçilik praktikası, həyata keçirilən dövlət siyasəti ilə əlaqədar faktlara diqqət yetirilməsi yerinə düşərdi.

**Heydər Əliyevin dövlətçilik praktikası**

Heydər Əliyevin dövlətçilik praktikası uzun illər ərzində formalaşmış və XX əsrin 60-cı illərindən başlayır. XX əsrin 60-ci illərinin sonlarında Azərbaycanda rəhbərliyin dəyişilməsi ilə Azərbaycan xalqının müqəddəratına təsir edən tarixi hadisələr baş verdi. 1969-cu ildə Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə seçilən Heydər Əliyev bu vəzifədə 1982-ci ilə kimi fəaliyyət göstərmiş, 1976-cı ildən Siyasi Büroya namizəd, 1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilmişdir. Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş, ölkə sənayesinin kuratoru kimi nəinki Azərbaycan Respublikasında, eyni zamanda bütün Sovetlər Birliyində nüfuzlu dövlət xadimi kimi fəaliyyət göstərmişdir (Heydər Əliyev, 2003: 30). Göründüyü kimi, 1970-1982-ci illərdə Heydər Əliyev respublikaya rəhbərlik edir, 1982-1986-cı illərdə Ümumittifaq rəhbərliyində ən əhəmiyyətli vəzifələrdən birində çalışmışdır. Təbiidir ki, respublika və ümumittifaq rəhbərliyində çalışarkən Heydər Əliyevin amalı Azərbaycan xalqına xidmət etmək, Azərbaycan millətini dünyanın ən qabaqcıl millətləri sırasında görmək, Azərbaycan Respublikasının bütün sahələrdə sürətlə inkişaf etməsinə nail olmaq idi. Deyilən fikrin təsdiqi üçün sadəcə müasiri olduğumuz tarixi hadisələrin bir daha göz önünə gətirilməsi bəs edər. İlk növbədə cənab Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərliyinin birinci mərhələsinə, yəni XX əsrin 60-ci illərinin sonundan 80-ci illərin əvvəllərinə qədər olan dövrə diqqət yetirək. Bu illər Azərbaycan Respublikasının tarixində məhsuldar qüvvələrin inkişafında yüksək nailiyyətlər əldə edilməsi ilə diqqəti cəlb edir. Respublika ərazisində sənayenin, kənd-təsərrüfatı və nəqliyyatın mühüm sahələri inkişaf etməkdə idi. Azərbaycanın şəhərləşməsi prosesi uğurla gerçəkləşdirilirdi (Heydər Əliyev, 2013: 14). Respublikamızda bu illər ərzində geniş infrastruktur sistemi formalaşdı. Azərbaycan ərazisində şəhərlərin sayı 69-a çatdı. Onlardan 1-ində, Bakı şəhərində 1,5 milyondan yuxarı əhali məskunlaşmışdı. Gəncə və Sumqayıt iri, 7 şəhər − Naxçıvan, Mingəçevir, Əlibayramlı (Şirvan), Şəki, Lənkəran, Yevlax, Xankəndi şəhərləri orta (əhalisi 50-100 min civarında olan şəhərlər), qalan 59 şəhər kiçik şəhərlər idi. Bu şəhərlərin hamısında sənaye potensialı və nəqliyyat sistemi yaradılmışdı. Eyni zamanda 60-cı illərin sonu və 80-ci illərin əvvəllərində kənd təsərrüfatı respublikanın imkan və şəraitinə uyğun inkişaf etdirilirdi, böyük həcmdə xam mal hasil edilmiş və müvafiq emal sənayesi yaradıldı. İqtisadi ədəbiyyatlardan bu illər ərzində Azərbaycan Respublikasında Məcmu İctimai Məhsulun 2,38 dəfə, Milli gəlirin 2,35 dəfə, Əsas istehsal fondlarının 3,19 dəfə, sənayedə Məcmu İctimai Məhsulun 2,68 dəfə, kənd-təsərrüfatında isə 1,35 dəfə artdığı məlumdur. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə aparılan məqsədyönlü dövlət siyasəti Respublika iqtisadiyyatının elmi əsaslarla inkişaf istiqamətləri və metodikalarının müəyyənləşdirilməsinə yönəldilmişdi. Bu illərdə iqtisadçı alimlərimiz sənayenin, kənd-təsərrüfatının, nəqliyyatın inkişaf etdirilməsi imkanları, əmək ehtiyatlarının formalaşması və onların rasional istifadəsi, məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi, iqtisadi rayonlar üzrə respublikadaxili istehsal kompleksləri, mövcud istehsal strukturu və onlardan effektiv istifadə edilməsi məsələləri ilə əlaqədar nəzəri və praktiki əhəmiyyət daşıyan araşdırmalar aparırdılar. Respublika rəhbərliyi bir tərəfdən iqtisadçı alimlərin formalaşmasına, digər tərəfdən isə mütəxəssislərin respublika iqtisadiyyatının daha səmərəli inkişaf etdirilməsi imkanlarının müəyyənləşdirilməsi istiqamətində araşdırmalarının nəticələrinin istehsala tətbiqinə xüsusi diqqət yetirirdi. Heç də təsadüfi deyil ki, məhz bu illərdə və sonrakı illərdə Azərbaycan cəmiyyətinin müstəqil toplum kimi fəaliyyət göstərə bilməsi üçün potensial formalaşmışdır. Təbiidir ki, bütün bunlar böyük siyasətçi Heydər Əliyevin gələcək illərə hesablanmış, bilavasitə rəhbərliyi ilə ardıcıl olaraq həyata keçirilən siyasət kimi dəyərləndirilə bilər. Heç də təsadüfi deyil ki, sonradan 90-cı

illərin əvvəllərində cənab Heydər Əliyev çıxışlarında, nitq və bəyanatlarında keçid dövrünün spesifik cəhətlərindən biri kimi Azərbaycan Respublikasının müstəqilliyinin yenidən bərpasını, eyni zamanda müstəqilliyin əldə olunmasını hələ ötən əsrin 70-80-ci illərindən başlayaraq gedən proseslərin məntiqi nəticəsi kimi dəyərləndirmiş, keçid dövrünün vəzifəsi kimi mövcud olan iqtisadiyyatı əldə saxlamaq və sərbəst iqtisadiyyat prinsipləri əsasında yeni iqtisadi sistemin qurulması, həmin sistemin daha artıq səmərə verməsinin sənayedə də, kənd təsərrüfatında da, bir sözlə iqtisadiyyatın bütün sahələrində təmin olunmasını xüsusi olaraq qeyd etmişdi.

Lakin çox təəssüf ki, 80-ci illərin ikinci yarısından Azərbaycan ümumittifaq rəhbərliyində baş verən dəyişikliklərdən və "yenidənqurma" eksperimentlərindən ən çox zərər çəkən respublikalardan oldu.

Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa etdi və daha sonra 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətlərin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmiş, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir. Bütün bunlar isə öz növbəsində respublikada vəziyyətə ciddi təsir göstərdi.

İqtisadiyyat "təsərrüfat hesabı" ehkamlarına uyğun əsas istehsal fondlarının yenilənməsi üçün tələb olunan maliyyə ehtiyatlarından məhrum edildi. Təkcə bir faktı demək kifayətdir ki, 1988-ci ildə respublikada sənaye fondlarının köhnəlmə dərəcəsi 48 %, yanacaq sənayesində 62,9 % idi (4). Yenidən pambıq, yun, tütün məhsullarının 92-93 %-i xam məhsul kimi respublikadan kənara göndərilirdi. Respublikamız yenə də kənd təsərrüfatı məhsullarının ixracatçısı və sənaye məhsullarının idxalatçısı kimi çıxış etməkdə idi. Nəhayət, 1991-ci ildə Azərbaycan Respublikası öz siyasi müstəqilliyini bərpa edə bildi. Lakin 80-ci illərin ikinci yarısında və müstəqilliyin ilk illərində respublikada baş verən neqativ proseslər bütünlükdə Azərbaycan iqtisadiyyatına ciddi təsir göstərmişdi. Mütəxəssis dəyərləndirmələrinə görə 1991-1993-cü illərdə Ümumi Daxili Məhsulun həcmi 2 dəfə azalmış, inflyasiya hər ay 26-30 % artmaqda idi. Real əmək haqlarının artımı qiymətlərin artımından 2 dəfə aşağı idi. 1992-ci ilə nisbətən 1995-ci ildə milli valyuta xarici valyutalarla müqayisədə 150 dəfə ucuzlaşmışdı. İqtisadiyyat ötən illərin təsərrüfatsızlığının nəticəsi kimi böhran keçirirdi.

80-ci illərin sonlarından yaranmış situasiya Azərbaycan xalqının və Azərbaycan dövlətçiliyinin Heydər Əliyev cənablarının zəngin siyasi dünyagörüşü və idarəçilik təcrübəsinə müraciət etməsini günbəgün aktuallaşdırırdı. Bu xüsusda qeyd etmək lazımdır ki, 1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev əvvəl Bakıya, sonra isə Naxçıvana qayıtmış, həmin ildə Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. Heydər Əliyev 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuş, 1993-cü ilin may-iyun aylarında son dərəcə kəskinləşmiş hökumət böhranının qarşısı onun siyasi müdrikliyi və xalq arasında olan nüfuzu sayəsində aradan qaldırılmışdır.

Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi.

1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev Azərbaycanın sağlam, düşünülmüş, uzaqgörən dövlət siyasətinin formalaşması istiqamətində ciddi və məqsədyönlü şəkildə fəaliyyət göstərmişdir. Hər şeydən öncə xüsusi olaraq qeyd edilməlidir ki, ümummilli lider ölkəmizin dövlət siyasətinin əsas müddəalarını müəyyənləşdirmiş oldu. Həyata keçirlən dövlət siyasətinin əsas məqsədləri Azərbaycanın dünya dövlətləri birliyində layiqli öz yerini tutmasına nail olmasına, Azərbaycanın bütün dövlətlərlə əlaqə yarada bilməsinə, Azərbaycanın dövlət mənafeyinin tam təmin edilməsinə və Azərbaycanın faktiki olaraq bütün

dünyada bir müstəqil dövlət kimi tanınmasına yönəlmişdi. Eyni zamanda dövlət siyasətində əsas və mühüm istiqamətlərdən biri inzibati amirlik sistemindən bazar iqtisadiyyatına keçid problemlərinin həlli ilə bağlı idi.

Daha sonra ümummilli lider cənab Heydər Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq, yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi. Göründüyü kimi, çox uzun və məşəqqətli tarixi siyasi proses baş verməkdə idi. Bu hadisə və proseslər ilk növbədə Azərbaycan xalqının və dövlətinin müqəddəratı ilə bağlı olan proseslər idi. Eyni zamanda Azərbaycan Respublikasında iqtisadi situasiya ilə əlaqədar qeyd etmək lazımdır ki, cənab Heydər Əliyevin apardığı məqsədyönlü dövlət siyasəti nəticəsində sonrakı illərdə böhranın nəticələrini aradan qaldırmaq mümkün oldu. Demək olar ki, hər gün ümummilli lider Heydər Əliyev Azərbaycan iqtisadiyyatında böhranın aradan qaldırılması və dinamik inkişaf yoluna qədəm qoyması üçün, keçid dövrünün çox spektrli problemlərinin daha tez və keyfiyyətli həll edilməsi üçün müvafiq təsərrüfat orqan və təşkilat rəhbərlərinə olduqca dəyərli göstərişlər verirdi. Keçid dövrünün problemləri, onların həlli yolları, münasib mexanizm və vasitələrin müəyyənləşdirilməsi, bu istiqamətdə operativ tədbirlərin həyata keçirilməsi ümummilli lider Heydər Əliyev idarəçilik praktikasının başlıca məqsədlərindən biri kimi diqqəti cəlb edir. Bütün bunlara nail olmaq isə asan məsələ deyildi. Azərbaycan Respublikasında mövcud vəziyyətə təsir edən ciddi destruktiv qüvvə və faktorların böyük məharətlə zərərsizləşdirilməsi xüsusi olaraq qeyd olunmalıdır.

**Heydər Əliyev və keçid dövrü problemlərinin həlli praktikası**

Öncə qeyd etmək yerinə düşərdi ki, son yüz illiklərdə dünya iqtisadiyyatında mövcud bir neçə əsas tip diqqəti cəlb edir. Bunlar iki bazar iqtisadiyyatı sistemi və iki qeyri bazar sistemi- ənənəvi, inzibati amirlik sistemləridir. Bazar iqtisadiyyatının iki əsas modeli −libearl və sosial təmayüllü bazar iqtisadiyyatı modelləridir. Bazar iqtisadiyyatı modelinin birinci tipinə ABŞ modelini, ikinci tipinə Avropanın Skandinaviya ölkələrində (İsveç, Danimarka, Norveç, Finlandiya) bərqərar olan model tipini göstərmək olar. Liberal və sosial təmayüllü bazar iqtisadiyyatı tiplərində əsas fərq dövlətin sosial-iqtisadi prosesləri tənzimlənməsindəki rolu məsələsidir. Bazar iqtisadiyyatının liberal tipində dövlətin iqtisadiyyata müdaxiləsi minimal səviyyədədir, yəni sahibkar maraqları cəmiyyət maraqlarından üstün sayılır. Sosialtəmayüllü bazar iqtisadiyyatı modelində dövlətin iqtisadiyyatdakı rolu dəfələrlə artmışdır (Quliyev, 2015: 32 ).

Azərbaycan Respublikasının XX əsrin sonu və XXI əsrin əvvəllərində yaşadığı keçid dövrü prosesləri mərkəzləşdirilmiş, planlı iqtisadiyyatdan bazar iqtisadiyyatı münasibətlərinə keçid dövrü kimi xarakterizə edilir. Belə bir zəmində qeyd etmək lazımdır ki, mərkəzləşdrilmiş-planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid uzun müddəli tarixi prosesdir.

Ümumiyyətlə, ötən əsrin 80-ci illərinin sonlarından etibarən mərkəzləşdirilmiş planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid SSRİ, Çin, Avropanın sosialist ölkələrində həyata keçirilmişdir (6). Keçid prosesi iqtisadi liberallaşdırma, özəlləşdirmə və xüsusi kapitalın formalaşması şəraitində baş vermişidir.

Keçid dövrünün əsas indikatorları 1) qiymətlərin liberallaşdırılması, 2) makroiqtisadi sabitlik, 3) restrukturizasiya və özəlləşdirmə, 4) leqal instituoanl islahatlar hesab olunur.

Müxtəlif dövlətlərdə keçid müxtəlif formada olmuşdur. Bəzi dövlətlərdə keçid prosesini bir neçə həftəlik eksperimentlər kimi dəyərləndirmişlər (Makedoniya, Serbiya, Çernoqoriya), bəzi dövlətlərdə siyasi çevrilişlərə (Rumıniya) müşayiət olunmuş, bəzi dövlətlərin tənəzzül etməsi (SSRİ), bəzi dövlətlərin digər dövlətə inteqrasiyası (ADR), bəzi dövlətlərin adoptasiya olması (Çin, Laos, Kambodja) müşahidə olunmuşdur. XX əsrin 90-cı illərində keçid prosesini yaşayan dövlətlər qismində Azərbaycan, Albaniya, Belarus, Bolqarıstan, Kampuçiya, Çin, Xorvatiya, Çex Respublikası, Estoniya, Laos, Latviya, Litva, Kosovo Respublikası, Qazaxıstan, Qırğızıstan, Makedoniya, Polşa, Rumıniya, Slovak Respublikası, Tacikistan, Türkmənistan, Ukrayna, Vyetnam, Ermənistan göstərilə bilər. Avropa Birliyinə daxil olan 8 ölkədə Çex Respublikası, Estoniya, Macarıstan, Latviya, Litva, Polşa, Slovakiya və Sloveniyada keçid prosesi qurtarmışdır. Müvafiq

olaraq qeyd etmək yerinə düşərdi ki, bütün postsovet məkanında müstəqillik əldə edən dövlətlərdə olduğu kimi, Azərbaycan Respublikasında da artıq keçid dövrü başa çatmışdır.

Azərbaycan Respublikasında keçid prosesi, eyni zamanda Azərbaycan Respiublikasının müstəqil dövlət kimi tarix səhnəsində öz yerini tutması ilə müşaiyət olunmuşdur. Belə bir zəmində konkret olaraq Azərbaycan Respublikası reallıqlarına bir qədər daha ətraflı diqqət yetirilərsə qeyd etmək olar ki, müstəqillik illərində planlı iqtisadiyyatdan bazar iqtisadiyyatı münasibətlərinə keçid prosesində bir-biri ilə qarşılıqlı əlaqədə olan üç vəzifə həll edilmişdir. Buraya 1) makroiqtisadi sabitlik və iqtisadiyyatın sağlamlaşdırılması, iqtisadiyyatın böhrandan çıxarılması, 2) bazar iqtisadiyyatı sistemi institut və mexanizmlərinin formalaşdırılması, 3) dayanıqlı iqtisadi artımın təmin olunması daxildir. Lakin bütün bu qeyd edilənlər illəri əhatə edən proseslərin nəticəsi kimi dəyərləndirməlidir. Ümumiyyətlə, keçid prosesləri özünün mərhələliyi ilə diqqəti cəlb edir. Keçid dövrünün birinci mərhələsində dövlətin iqtisadiyata təsiri azalır. Bu isə öz növbəsində istehsalın həcminin azalmasına, iş yerlərinin ixtisar edilməsinə, təsərrüfat əlaqələrinin qırılmasına, həyat səviyyəsinin xeyli aşağı düşməsinə səbəb olur. İkinci mərhələdə yeni təsərrüfat əlaqələri, bazar infrastrukturu formalaşır. İxrac yönümlü məhsullar istehsal edən sahələr istehsalın həcmini artırmış olurlar. Əhalinin həyat səviyyəsi tədricən yüksəlir. Üçüncü mərhələ iqtisadi artımın başlanması ilə müşahidə edilir.

Mövcud dövlət idarəçiliyi modeli və tiplərinin seçilməsində XX ərin 90-ci illərində Heydər Əliyevin həyata keçirdiyi siyasət mühüm rol oynamışdır. Məhz bu baxımdan qeyd etmək lazıdır ki, müasir Azərbaycan dövlətçiliyi praktikası və ənənələrindən danışarkən, ilk növbədə, Heydər Əliyev dühası göz önünə gəlir. Azərbaycan Respublikasında siyasi və iqtisadi sabitliyin təmin olunması cənab Heydər Əliyevin Azərbaycan xalqı və dövlətçiliyi qarşısında yerinə yetirdiyi tarixi missiyası kimi dəyərləndirilə bilər. Ümummilli lider Heydər Əliyev yüksək tribunalardan bəyan etmişdir ki, Azərbaycan dövlətinin iqtisadiyyat sahəsində strateji yolu, strateji xətti bundan ibarətdir ki, bizdə mülkiyyət forması tədricən dəyişdirilməli, iqtisadiyyatımız bazar iqtisadiyyatı əsasında qurulmalı, təşəbbüskarlığa geniş meydan verilməlidir. Məhz bu, iqtisadiyyatımızın strateji yoludur (Heydər Əliyev, 1994).

1993-cü il təsdiq edilmiş "Azərbaycan Sahibkarlığının İnkişafı" (1993-1995) adlı Dövlət proqramı Azərbaycanda kiçik və orta sahibkarların sayının artmasına, xarici ölkələrlə iqtisadi ticarət əlaqələrinin yaranmasına müsbət təsir göstərdi (8).

Heydər Əliyevin missiyasının zirvələrindən biri kimi 1994-cü ildə sentyabrın 20-də Bakıda neft hasilatı üzrə ixtisaslaşmış dünyanın 8 ölkəsini təmsil edən dünyanın 12 iri neft şirkəti arasında Xəzər dənizinin Azərbaycana aid sektorunda yerləşən üç neft yatağının "Azəri", "Çıraq" və "Günəşli" neft yataqlarının birgə işlənilməsini nəzərdə tutan "Əsrin müqaviləsi"ni göstərmək olar (9). Əsrin müqaviləsi siyasətçi Heydər Əliyev dühasının təntənəsi kimi qiymətləndirilməlidir.

Eyni zamanda qeyd etmək lazımdır ki, 1995-ci ildən respublikada makroiqtisadi sabitləşmə və struktur dəyişikliklərini nəzərdə tutan dövlət proqramları həyata keçirilməyə başlanıldı və müvafiq olaraq Azərbaycan Respublikasında 1996-cı ildə Ümumi Daxili Məhsulun həcmi 1,3 %, 1997-ci ildə 5,8 % artmış oldu. 1997-ci ilə kimi Milli Məclis 120-dən çox qanunvericilik sənədlərini qəbul etdi, 15 neft kontraktı bağlanıldı, 1997-ci ildə Azərbaycan iqtisadiyyatına 1,2 milyard dollar investisiya qoyuldu. 1997-ci ildən xüsusi fərmanla xarici ticarətin liberallaşmasına başlanıldı. Bütün kəmiyyət məhdudiyyətləri ləğv edildi. Hökumət vahid tarif strukturunu müəyyənləşdirdi. İxrac məhsullarına 15%-lik rüsum müəyyənləşdirildi. 1997-ci ildən xarici ticarət dövriyyəsində müsbət saldo əldə edildi. Milli valyutanın dəyəri ABŞ dollarına nisbətdə 10 % bahalaşdı. Göründüyü kimi, Azərbaycanda 1995-ci ildən sonra iqtisadi böhranın qarşısı alınmış, 1998-ci ildən sonra isə davamlı iqtisadi artıma nail olundu. Keçid dövrünün olduqca destruktiv faktorlarına baxmayaraq, həyata keçirilən uğurlu iqtisadi inkişaf strategiyası öz bəhrəsini verdi. Müvafiq olaraq qeyd etmək yerinə düşərdi ki, müstəqillik illərində planlı iqtisadiyyatdan bazar iqtisadiyyatı münasibətlərinə keçid prosesində bir-biri ilə qarşılıqlı əlaqədə olan üç vəzifə həll edildi. Buraya 1) makroiqtisadi sabitlik və iqtisadiyyatın sağlamlaşdırılması, iqtisadiyyatın böhrandan çıxarılması; 2) bazar iqtisadiyyatı

sistemi institut və mexanizmlərinin formalaşdırılması; 3) dayanıqlı iqtisadi artımın təmin olunması daxildir.

Bu illər ərzində bazar iqtisadiyyatı münasibətlərinin bərqərar olmasından sonra dayanıqlı iqtisadi artımın təmin olunması üçün xeyli işlər görülmüş, bazar iqtisadiyyatının tənzimlənməsi kimi olduqca mürəkkəb, xüsusən də ölkə iqtisadiyyatının böhrandan çıxması ilə müşayiət olunan prosesdə Azərbaycanın dövlət və hökümət rəhbərləri tərəfindən bir çox ciddi problemlər həll edilmişdir. Buraya inflyasiya, işsizliyin artması, istehsalın həcminin aşağı düşməsinin qarşısının alınması və s. kimi məsələlərin həlli daxildir. Təbiidir ki, bütün bunlar əsası ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən və bu gündə reallaşdırılması davam etdirilən dövlət siyasətinin nəticəsi kimi dəyərləndirilə bilər.

Azərbaycan Respublikasında keçid dövrü ilə əlaqədar həyata keçirilən mühüm tədbirlərdən biri kimi özəlləşdirmə strategiyasının işlənilib hazırlanması və həyata keçirilməsi göstərilə bilər. 1993-cü ilin yanvarında Azərbaycan Respublikasında Dövlət Əmlakının özəlləşdirilməsi Proqramı qəbul edildi. Daha sonra 1994-cü ilin iyununda Milli Məclis "Azərbaycan Respublikası Dövlət Əmlakının Özəlləşdirilməsinin I Dövlət Proqramını təsdiq etdi. Proqramda 1995-1998-ci illərdə dövlət əmlakının 3\2 hissəsinin özəlləşdirilməsi nəzərdə tutulurdu. Özəlləşdirmə prosesi isə faktiki olaraq 1996-cı ilin mart ayında başlandı (Qasanov, 2005: 96).

1998-ci ilə qədər 28 mindən çox kiçik müəssisə özəlləşdi və demək olar ki, kiçik özəlləşdirmə başa çatdırıldı. 1997-ci ildən isə özəlləşdirmənin həlledici mərhələsi olan böyük özəlləşdirməyə – orta və iri dövlət müəssisələrinin səhmdar cəmiyyətlərinə çevrilməsi prosesinə başlandı. Təkcə 1998-ci ildə 800-dən çox orta və iri dövlət müəssisəsi səhmdar cəmiyyətlərə çevrildi.

Daha sonra 2000-ci ilin avqust ayında "Dövlət Əmlakının Özəlləşdirilməsi haqqında "Azərbaycan Respublikasının Qanunu və "Azərbaycan Respublikasında Dövlət Əmlakının Özəlləşdirilməsinin İkinci Dövlət Proqramı "qüvvəyə mindi. I Dövlət Proqramı ilə müqayisədə ikinci Dövlət Proqramına 40-dan çox yeni müddəa daxil edildi. Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin 2001-ci ilin mart ayındakı fərmanından sonra özəlləşdirmənin ikinci mərhələsi başladı. Bütünlükdə fərmana əsasən, 300 iri müəssisənin özəlləşdirilməsi həyata keçirilmişdir.

1993-2003-cü illərdə Heydər Əliyevin rəhbərliyi və bilavasitə dəstəyi ilə Azərbaycanda aqrar islahat həyata keçirildi. 1996-cı ildə avqustun 2-də Azərbaycan Respublikasının "Torpaq islahatı haqında Qanun" qüvvəyə mindi. Yeni Qanuna əsasən Azərbaycan Respublikasının vahid torpaq fondu əsasında üç torpaq mülkiyyəti növü 1) dövlət, 2) bələdiyyə, 3 ) özəl mülkiyyət növləri yaradıldı. Aqrar islahatın həyata keçirilməsi nəticəsində ölkədə kənd təsərrüfatı məhsullarınınn istehsalı yüksəldildi, əsas istehsalçı kütləsi olan kənd əhalisinin rifahı xeyli yüksəldi (Nizmzade, Ramazanov, 2015).

Öz torpağının tam hüquqlu sahibinə çevrilmiş Azərbaycan kəndlisində torpağı səmərəli becərmək, torpağa səmərəli qayğı göstərmək həvəsi yarandı. 1999-ci ildən başlayaraq kənd təsərrüfatı məhsullarının 80%-i özəl sektorda istehsal olundu (Məmmədov, 2008: 67).

## Nəticə

XX əsrdə Azərbaycan xalqı dəfələrlə əsarət zülmünə qarşı mübarizəyə qalxaraq millət olmaq əzmini nümayiş etdirsə də, ancaq XX əsrin sonlarında gerçəkləşən və daimi olan müstəqillik uğurları məhz ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev tarix səhnəsində iz buraxan qüdrətli şəxsiyyətlərdən biridir. Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının dövlət quruculuğu, eyni zamanda inzibati-amirlik sistemindən bazar iqtisadiyyatı münasibətlərinə keçid proseslərinə rəhbərlik etmişdir. Bazar iqtisadiyyatı münasibətlərinə keçid prosesində bir-biri ilə qarşılıqlı əlaqədə olan üç vəzifə həll edildi. Buraya 1) makroiqtisadi sabitlik və iqtisadiyyatın sağlamlaşdırılması, iqtisadiyyatın böhrandan çıxarılması; 2) bazar iqtisadiyyatı sistemi institut və mexanizmlərinin formalaşdırılması; 3) dayanıqlı iqtisadi artımın təmin olunması daxildir.

## Ədəbiyyat

1. Makhmudov, K.F. (2016). Geydar Aliyev kak odin iz liderov SSSR. EESJ. №2 , s.116-118. URL: https://cyberleninka.ru/article/n/geydar-aliev-kak-odin-iz-liderov-sssr
2. Heydər Əliyev. (2003). Biblioqrafik məlumat kitabı. Bakı: BDU nəşriyyatı, 434 s.
3. Heydər Əliyev. (2013). İki cilddə, I cild. Bakı: “Turxan”, NPB, 500 s.
4. https://www.stat.gov.az
5. Guliyev, R.A. (2015). Sovremennye ekonomicheskiye modeli i Azerbaydzhan. Vestnik Kievskogo natsionalnogo universiteta im. Tarasa Shevchenka. Seriya Ekonomika. № 6 (171), s.32 (s.31-35). https://cyberleninka.ru/article/n/sovremennye-ekonomicheskie-modeli-i-azerbaydzhan
6. https://www.ebrd.com/downloads/research/economics/litsR.pdf
7. Heydər Əliyev. (1994). Elektron sənədlər toplusu: nitqləri, çıxışları, məruzələri, müsahibələri, bəyanatları. https://heydaraliyev.preslib.az
8. https://sesqazeti.az/news/politics/867295.html
9. https://azerbaijan.az/related-information/131
10. Gasanov, R. (2005). Privatiziya v Azerbaydzhane relii i problemy. Nauchnyye izvestiya Sumgaitskogo gosudarstvennogo universiteta. Seriya «Sotsial'nyye i gumanitarnyye nauki», tom 1, №3-4, s.96-104.
11. Nizamzaade, T.N., Ramazanov, S.I. (2015). Provedenie zemelnoy reformy v Azerbaydzhane. Selskoxozyaystvennye nauki i agropromyshlenny kompleks na rubezhe vekov, №9. URL: https://cyberleninka.ru/article/n/provedenie-zemelnoy-reformy-v-azerbaydzhane -i-ee-rezultaty
12. Məmmədov, Q. (2008). Heydər Əliyev torpaq islahatları regionların sosial-iqtisadi inkişafının əsasıdır. 232 s.

Göndərildi: 12.11.2022 Qəbul edildi: 20.03.2023